**UOT 902**

# GƏDƏBƏY ARXEOLOGİYASININ FORMALAŞMASI MADDİ MƏDƏNİYYƏTİMİZİN ƏSAS MƏNBƏYİ KİMİ

**Sahib VƏLİYEV***

Məqalə redaksiyaya daxil olmuşdur: 7 mart 2024; çapa qəbul edilmişdir: 7 aprel 2024; online-da çap edilmişdir: 24 may 2024.
Received: 7th of March, 2024; accepted: 7th of April, 2024; published online: 24th of May, 2024.

**Açar sözlər:** *Gədəbəy rayonu, arxeoloji tapıntılar, qalalar, qalaçalar, düşərgələr, regional tarix, milli sərvətlər, Xocalı-Gədəbəy mədəniyyəti, “Qalaça”*

## Giriş

Qədim tarixə malik olan Gədəbəydən və onun ərtafındakı qədim yaşayış düşərgələrindən aşkar edilmiş arxeoloji tapıntılar nəticəsində, son Tunc və ilk Dəmir dövrünə (e.ə. XIV-VII əsrlər) aid Xocalı-Gədəbəy mədəniyyəti müəyyən edilmişdir. Bu dövrdə Gədəbəydə “Qalaça” adlanan yaşayış düşərgələri tikilmişdir. Bu ərazinin əhalisi, orta əsrlərdə də Gədəbəy rayonunun ərazilərində olduğu kimi, Azərbaycan tarixində mühüm rol oynamışdır (5, s. 468; 8, s.196; 3, s.114;14, s. 59).

Gədəbəy rayonu Xocalı-Gədəbəy tarixini özündə birləşdirib yaşadan yaşayış məskənidir. Bu yaşayış yerlərinin üzərində inşa edilmiş ən qədim yaşayış düşərgələri olan qalaların və qalaçaların tarixinə diqqət yetirdiyimiz zaman e.ə. XIV-VII əsrlərə qədər boylanmalı oluruq. Bu yerin də qədim yaşayış məskəni olduğunu, həmin yaşayış yerlərinin XIII əsrdə monqolların basqını nəticəsində dağıdıldığını aşkarlaya bilirik (4, s. 47; 11, s. 27; 20, s. 78; 10, s. 25).

Çoxcildlik Azərbaycan arxeologiyasının yazılmasında əsas məqsəd son 200 ildə və xüsusən, XX əsrdə Azərbaycan dövləti iki dəfə müstəqillik əldə etdikdən sonra respublikamızın ərazisində aparılmış arxeoloji tədqiqat və kəşfiyyat işləri nəticəsində tapılmış maddi-mədəniyyət qalıqlarını arxeologiya elminin müasir səviyyəsində tədqiq edib, onun nailiyyətlərini beynəlxalq mühitə və ölkəmizin geniş ictimaiyyətinə çatdırmaqdan ibarətdir (4, s. 44; 14, s. 25).

Uzaq keçmişin tədqiqində ən mühüm mənbə arxeoloji tapıntılar hesab olunur. Arxeoloji mənbələr əsasında ilk ibtidai insanların meydana gəlməsi, inkişaf etməsi və formalaşması tarixini dəqiq öyrənmək olur. Məhz buna görə də, arxeologiya elmi insanın uzaq keçmişini maddi mədəniyyət qalıqları vasitəsilə tədqiq edir. 1953-cü ilə qədər Azərbaycan Respublikası ərazisində Paleolit dövrünə aid qədim insan düşərgələrinin olmadığı barədə elmi ədəbiyyatlarda yanlış fikir söylənilirdi. Hətta 1881-ci ildə Tiflis şəhərində keçirilən V arxeoloji qurultayda Zaqafqaziya və o cümlədən, Azərbaycan ərazisində ibtidai insanların yaşamadığı və bu bölgələrdə qədim insan düşərgələrinin olmaması barədə qərar çıxarılmışdı. Təəssüf ki, 1953-cü ilə qədər Azərbaycan tarixinə

* *tarix üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*
*e-mail*: s.valiyev70@gmail.com

aid yazılmış bəzi əsərlərdə bu qərarın düzgün olduğunu söyləyən arxeoloqlar da var idi (4, s. 34; 14, s. 27).

Tarixi mənbələr, coğrafi və paleogeoloji ədəbiyyatlardan məlum olurdu ki, Azərbaycan Respublikasının ərazisi bunun kimi də Gədəbəy rayonunun ətrafı, ən qədim zamanlardan ibtidai insanların məskunlaşması üçün olduqca əlverişli təbii coğrafi şəraitə malik olmuşdur.

Daş dövrünün görkəmli tədqiqatçısı Sergey Nikolayeviç Zamyatnin 1950-ci illərin əvvəllərində yazırdı ki, Azərbaycan ərazisində, onun kimi də Gədəbəy rayonunun ətrafında Daş dövrünün ən qədim tapıntılarına rast gəlmək mümkündür. Azərbaycan Respublikası ərazisində və Gədəbəy rayonunun Cənub-Qərb istiqamətində paleolit düşərgələrinin aşkar olunması məqsədilə, 1953-cü ilin noyabrında rus alimi S.N.Zamyatnin Leninqraddan Bakıya dəvət olunmuş və bir neçə rayonlarla bərabər Gədəbəy rayonunun ərazisində yenidən arxeoloji qazıntı ilə məşğul olmuşdur (2, s. 35; 5, s. 78; 20, s. 121).

## 1. Gədəbəy arxeologiyasının formalaşmasında maddi mədəniyyətimizin rolu

Qafqaz Albaniyası maddi-mədəniyyət abidələrinin və qədim tarixə malik olan yaşayış yerlərinin öyrənilməsi, Gədəbəyimizin çoxəsrlik tarixinin araşdırılması və tədqiq edilməsi baxımından olduqca əhəmiyyətlidir. Belə ki, Gədəbəydə “Altı bulaq qalası” Son tunc və ilk dəmir dövrünə aid olan Novosaratovka kəndindəki “Qarabağ qalası”, Son tunc və ilk dəmir dövrünə aid olan Arıqdam kəndindəki “Pir qalası”, Son tunc, ilk dəmir dövrünə aid olan Qumlu kəndinin şimal-qərbindəki “Namərd qalası”, Son tunc və ilk dəmir dövrünə aid olan Qalakənd kəndindəki “Qrex qalası”, Son tunc və ilk dəmir dövrünə aid olan Maarif kəndindəki “Parakənd qalası”, Son tünc və ilk dəmir dövrünə aid olan Parakənd kəndindəki “Körpü”, XI əsrə aid olan Gədəbəy şəhərindəki “Kilsə”, Gədəbəy şəhərinin üç km-liyindəki “Körpü”, Qalakənd kəndindəki bir nömrəli “Körpü”, XII əsr Səbətkeçməz kəndindəki iki nömrəli “Körpü”, XI əsrə aid Səbətkeçməz kəndindəki üç nömrəli “Körpü”, XIII əsr Səbətkeçməz kəndindəki “Məbəd”, 1535-ci ilə aid olan Novosaratovka kəndindəki “Körpü”, Söyüdlü kəndindəki “Məbəd”, 1634-cü ilə aid olan Böyük Qaramurad kəndindəki “Körpü”, XI əsrə aid Yenikənd kəndindəki “Məbəd”, XI əsr aid olan Çanaqcı kəndindəki “Kilsə”, Çanaqcı kəndindəki “Körpü”, “Çanaqcı Məbədi”, Əyrəvəng kəndinin yaxınlığındakı “Əyrivəng” qədim yaşayış düşərgəsi, İvanovka kəndinin yaxınlığındakı “Məbəd”, Kilsəli kəndindəki “Körpü”, XI əsr Əlinağılar kəndindəki “Məbəd”, XVI-XVII əsrə aid Gəndərə ərazisindəki “Koroğlu mağarası”, Şurabad kəndinin on km-liyindəki “Dünyamalı” yaşayış düşərgəsi, həmin ərazilərə yaxın olan “Baqqal”, “Kürd dərəsi”, “Daşəsəri”, Koroğlu mağarası kimi tanınan “Cavanşir qalası”, Orta əsrə aid olan Novosaratovka kəndinin cənub-qərbindəki “Qız Qalası”, IX əsrə aid Söyüdlü kəndindəki “Qala”, XVI əsrə aid Qalakənd kəndindəki “Qalaça”, Şurabad kəndinin ərazisindəki Xocalı-Gədəbəy mədəniyyətinə aid olan “Qalaça”, Çobankənd kəndi və Yenikənd kəndlərinin ərazisindəki “Kilsə”, Şurabad kəndinin on km-liyindəki “Koroğlu qalası” və digər alman dövrü abidələri tariximizin yazılı mənbələrinə aydınlıq gətirə bilmədiyi məqamlarını öyrənmək üçün dəyərli arxeoloji mənbələrdir. Bu sıraya Gədəbəy rayonunun Şahdağ kəndi ərazisində aşkar olunmuş Xocalı-Gədəbəy mədəniyyətini xatırladan “Qalaça” kimi tanınan qədim yaşayış düşərgəsinin və maddi-mədəniyyət abidəsi haqqında da istənilən qədər danışıb yaza bilərik. Buradakı təsadüfi tapıntılar öz zənginliyi ilə seçilir. Abidənin və qədim yaşayış düşərgəsinin arxeoloji cəhətdən öyrənilməsini qaçılmaz edir (4, s. 92; 10, s. 45; 21; 22).

## 2. Gədəbəydə aparılan arxeoloji tədqiqatlar və axtarışlar arxeologiya elminin formalaşmasında əsas vəzifə kimi

Haqqında danışmaq istədiyimiz Gədəbəy rayonunun keçmiş Şurabad (Sovetabad), indiki Şahdağ kəndinin yaxınlığındakı "Qalaça" qədim yaşayış yeri və ona məxsus zəngin tapıntılar ilk dəfə yerli camaat tərəfindən aşkarlanmışdır. Burada mövsümlə bağlı aparılan təsərrüfat işləri zamanı təsadüfən aşkara çıxarılan maddi mədəniyyət nümunələrinin bir hissəsi toplanaraq elmi cəhətdən tədqiq olunmuşdur.

Tapılmış arxeoloji materialların xeyli hissəsi Gədəbəy rayon Tarix Muzeyinə təqdim olunmuşdur. Hazırda qədim yaşayış düşərgəsi olan və qədim tarixi özündə əks etdirən, Xocalı-Gədəbəy mədəniyyəti dövrünü xatırladan "Qalaça"dan tapılan maddi-mədəniyyət nümunələrindən muzeyin sərgilərində istifadə olunur. Gənc yaradıcı insanların, tədqiqatçıların, bu istiqamətdə təhsil alan magistrantların və doktorantların bir varlıq kimi köməyinə çatır (3, s.17; 14, s. 82).

Bu tarixi məkan qədim "Qalaça" adı kimi tanınan maddi-mədəniyyət abidəsinin elmi cəhətdən öyrənilməsinə həsr olunmuşdur.

"Qalaça" yaşayış yeri keçmiş Şurabad (Sovetabad), indiki Şahdağ kəndi ilə keçmiş Arabaçı və indiki Çiçəkli kəndi ərazisində yerləşir. Qədim tarixə malik olan və qədim yaşayış yeri olan "Qalaça" Şahdağ kəndinin qərbində, Çiçəkli kəndinin isə cənubunda yerləşir. Hər iki kənddən təqribi iki min beş yüz üç min metr Şahdağ kəndindən qərbi-şərqə, Çiçəkli kəndindən isə cənubu-qərb istiqamətdə yüksək bir ərazidə yerləşir. "Qalaça"nın ərazisi qalın meşəliklə əhatə olunub. "Qalaça"nın gündoğan istiqamətində iki bulağın mövcud olması, o yerləri tanıyan hər kəsə məlumdur. Həmin bulaqların yeraltı kanallarla haradan gətirilməsi məlum olmasa da, həmin bulaqların orada təsadüfi olması, o yerləri tanıyanlara bəllidir. Həmin ərazilər elə bir yüksəklikdə yerləşir ki, orada təbii su qaynaqlarının olmasını düşünmək çətindir. Qədim tarixə malik olan və Xocalı-Gədəbəy mədəniyyətini özündə xatırladan "Qalaça" təxminən 3000-4000 min metr ərazidən, yəni dərələrdən axan Şurçayın və yaxud Təpə çayın (indi isə həmin çayı Bayacan çayı kimi qeydiyyata alıblar. Zəyəm çayının böyük qollarından biridir) şimal istiqamətindədir (14, s. 87).

Tədqiqat işimizin əsas istiqamətini təşkil edən və tarixi dövr etibarilə qədim yaşayış düşərgəsi sayılan "Qalaça"nın ərazisi altı hektardan böyükdür. Bu fakta əsasən, ərazinin geniş areala sahib olduğunu qeyd edə bilərik. Bu qədim yaşayış yerinin ətrafı uzun müddət əkin sahəsi kimi şumlanaraq, buğda və qarğıdalı əkilməsi haqqında fikirlər də söylənilir. Əkin-səpin ərazisinə yaxın olan "Qalaça"nın yan-yörəsi zaman keçdikcə baxımsızlıq, təbii fəlakətlər və yağış-sel yumaları nəticəsində eroziyaya uğrayaraq, dağılma təhlükəsi ilə üz-üzə qalmışdır. "Qalaça"nın giriş və çıxış qapıları yararsız hala düşərək, tanınmaz hala çevrilmişdir. Yerli əhalinin və bəzi səyyah adı ilə gəlib talançılıq və qarətçilik məqsədinə düşənlərin savadsızlığı nəticəsində qalanın divarlarının da dağıntısı baş vermişdir. "Qalaça" adlanan qədim yaşayış məskəni olan qalanın ətrafında və dağılmış hissəsinin yaxınlığında xeyli miqdarda keramika nümunələrinə, daşdan hazırlanmış kobud əmək alətlərinə, gil qab qırıqlarına, ocaq yerlərinə, küplərə və maddi-mədəniyyət nümunələrinə rast gəlmək olar. Qalanın gündoğan istiqaməti daha möhtəşəm olduğundan hər kəsin diqqətini çəkir. Eyni zamanda, gündoğan istiqamətinin sağ və sol tərəflərindəki bulaqların varlığı və görüntüsü, hər kəsdə bir fikir oyadıb diqqətini çəkməklə Xocalı-Gədəbəy mədəniyyətinə söykənib siyasi-fəlsəfi fikir söyləməyə məcbur edir (5, s. 55; 15, s. 36).

Yadelli işğalçılardan və düşmən həmləsindən qorunmaq məqsədilə inşa edilən qədim yaşayış düşərgəsi özünə məxsusluğu ilə seçilir. Cənub-qərbi ilə şimal-şərqi bir birindən fərqlənən qədim yaşayış düşərgəsinin ərazisinin fərqli olması diqqətdən qaçmır. Gündoğan tərəfin sıldırım qayalarla, çökəkliklə və dərələrlə əhatə olunsa da, günbatan tərəfi böyük bir düzənliklə və talalarla, qərb hissəsi isə enişli-yoxuşlu dağlarla əhatələndiyi üçün diqqəti çəkir (20).

Həmin yaşayış yerinin ərazisində daşların və hörgü divarı üçün kiçik və yaxud böyük həcmli qayaların olmadığını görsək də, qalanın inşası üçün daşların haradan gətirilməsi də diqqəti cəlb edən mövzulardan biridir. Divardakı daşların eni və uzunu, qalınlığı və hündürlüyü hər kəsdə bir fikir oyatmalı olur və bir sual yaradır ki, görəsən bu daşları haradan və kimlər nə ilə gətiriblər? Elə burada qeyd edə bilərik ki, qalanın inşası prosesində sərf edilən daşların hər birinin həcmi və böyüklüyü 300-500 kiloqram arasında dəyişir. Bu ərazilərdə qədim nəhəng insanların da yaşaması diqqətdən qaçılmazdır. Çünki bu ərazilərdə, bunun kimi də həmin qalanın tikintisində və qurulmasında nəhəng insanların iştirak etməsi qaçılmazdır.

Qalaya iki istiqamətdən-giriş və çıxış üçün yolların olması da diqqət çəkəndir. Hər iki yolun, yəni girişin və çıxışın şimal istiqamətdən olması, girişi Zəyəm çayının başlanğıcından – Şahdağ kəndi və Şahdağın yamaclarından, çıxışı isə indiki Çiçəkli kəndi istiqamətində olan fərqli quruluşda olan yollara görə diqqəti cəlb edir. “Avasalı” və “Yanıq dam” adlanan qədim yaşayış ərazilərinə qədər uzanan qalanın şimala çıxış qapısının mövcud olması da qalanın fərqli cəhətlərindən birini təşkil etməkdədir.

Gədəbəy rayonunun 40-45 km-liyində, Zəyəm çayının mənbəyinə yaxın və sağ sahilində yerləşən keçmiş Şurabad (Sovetabad), indiki Şahdağının kəndinin baş və qərb hissəsində, keçmiş Arabaçı, indiki Çiçəkli kəndinin sol istiqamətində yerləşən qədim yaşayış düşərgəsi “Əzgilli” yaşayış məkanının formalaşması tarixən məlum olmasa da, oradan insanların fərqli istiqamətlərə köç etməsi, oranın sakinlərinin yaddaşındadır. Yadelli işğalçıların hücumlarına məruz qalan həmin yerlərin sakinləri ayrı-ayrı istiqamətlərə köç etsələr də, qeyd edilən torpaqların mübarizəsi uğrunda səy göstərmişdilər. Xocalı-Gədəbəy mədəniyyətinə diqqət yetirmiş olsaq, oradan da görə bilərik ki, həmin yerlərin daha da formalaşması, inkişaf etməsi XI-XIII əsrlərin təbii və tarixi hadisələri, eyni zamanda əhalinin say çoxluğu etibarilə diqqət mərkəzində olmuşdur. Eyni zamanda əsaslandığımız digər bir fakt, “Qalaça”nın yaxınlığındakı yaşayış düşərgələrinin çox olması ilə əlaqədardır (20, s.189:11, s. 39; 19).

1220-ci ildə Monqolların Azərbaycana ilk kəşfiyyat xarakterli yürüşləri zamanı Gəncə şəhəri və onun ətraf ərazilərində hücumların, talanların və qarətlər ərəfəsində Gədəbəy rayonunun qədim yaşayış düşərgələrinə də hücumlar təşkil edilib. Belə ki, orada yaşayan yerli əhalini daimi yaşayış yerlərindən qaçmağa məcbur etmişlər. Bu yerlərdəki qədim insan məskənlərindən məlum olur ki, insanların bir hissəsi bir yerdən digər yerlərə köç edərək, yeni məskənlər salmışdılar (4, s.189; 17).

Zəyəm çayının cənub-qərb istiqamətində, Kiçik Qafqaz dağları sırasında olan və Şahdağın ətəyindən mənbəyini götürən “Höyər” çayının sağ və sol sahillərindəki qədim yaşayış məskəni və eyni yaşayış düşərgələri “Höyər” düşərgəsini də bu dediklərimizə misal kimi göstərə bilərik. Başqa bir misala əsaslanaraq yerli mənbələrdən istinad kimi qeyd edə bilərik ki, hal-hazırda da Qaraqoyunlu dəstəsi olaraq tanınan və “Kürd dərəsi” kimi bu günə qədər gəlib bizlərə çatan qədim yaşayış düşərgələri 1350-1410-cu illəri, “Şahtalası” kimi tanınan ərazilər isə 1501-1524-cü illəri xatırladır. Qara Məhəmməd və Şahocağındakı qədim yaşayış yurdlarının tarixi, 1350-ci illərdən sonra formalaşaraq,

birləşən tayfaların da "Qalaça"ya yaxın məsafədə yerləşdiyini göstərir. Bu yerlərdə yaxın ərazilərə köç edən tayfaların hamısının bir-birinə yaxın olması, bir nəsildən və bir kökdən olmasını onların yaxın əlaqələri və qurub yaratdıqları yaşayış düşərgəsi sübut edir. Müxtəlif qədim tarixə malik olan yaşayış düşərgələrinin oxşarlığını, eləcə də, eyni tikilililərin, eyni nəsl-kökün və eyni düşüncənin məhsulu olduğunu görə bilirik. B.e.ə. - XIV-VII əsrlərə aid olan və həmçinin Xocalı-Gədəbəy mədəniyyətini xatırladan "Qalaça" düşərgəsində olduğu kimi, "Höyər" çayı ətrafındakı eyni adlı düşərgələrdə, "Daşəsəri", "Daşarxacı", "Baqqal", "Kürd dərəsi", "Şahocağı" və "Alagöllər" düşərgələrində də tiklilərin quruluş etibarilə eyniyyət təşkil etdiyini görürük (1, s. 397; 23; 20).

**Nəticə**

Azərbaycan xalqı qədim tarixə malik olan xalqdır. Belə ki, qədim yaşayış düşərgələri, insan məskənlərinin və mədəniyyətimizin dünya miqyasında böyük şöhrətə malik olduğunu xalqımıza nə qədər dərindən çatdıra bilsək, bir o qədər də xalqımızın vətənpərvərlik hissini yüksəldərik.

Azərbaycan dövləti bu gün inkişafın zirvəsindədir. Ölkəmizin inkişafı, arxeoloji tədqiqatı və axtarış nəticəsində əldə olunan maddi mədəniyyəti, təkcə Gədəbəy rayonunun ərazisində deyil, başqa regionlarımızda da tədqiqatın əhəmiyyətini müşahidə edə bilərik. Ölkəmizin görkəmli şəxsiyyətləri xalqımızın zəkasını, eləcə də dəyərli mənəviyyatımızı, arxeoloji qazıntılar nəticəsində əldə olunan milli mənəvi dəyərlərimizi, qədim tarixə malik olan ilk insan düşərgələrini və mədəniyyətimizi dünyaya nümayiş etdirirlər. Azərbaycan dövləti özünün tarixi məkanlarını, qədim yaşayış yerlərini, ilk insan məskənlərini sübut edir və bu strategiyanın əsas mənası, prinsiplərini, Gədəbəy rayonunun zəngin təbii sərvətlərindən, o cümlədən qızıl, mis bunlar kimi də başqa yeraltı və yerüstü sərvətlərindən, qədim yaşayış məskənlərindən, qalalardan, qalaçalardan, körpülərdən, abidələrdən, qədim tarixi özündə əhatə edən varlıqlardan Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməyə çalışır.

**ƏDƏBİYYAT**


1. Cəfərzadə İ. Azərbaycan tarixinin ən qədim dövrü. Bakı: Azərnəşr, 1956, 122 s.
2. Cəfərov Ə. Azərbaycan qədim insan məskənidir. Bakı: Azərnəşr, 1989, 157 s.
3. Hüseynov M. Azərbaycanın arxeoloji abidələri. Dərslik. Bakı: Azərnəşr, 1981, 217 s.
4. Kalankatuklu, Moisey. Albaniya tarixi. Bakı: Elm, 1993, 174 s.
5. Qafarov T. Azərbaycan tarixi. 7 cilddə, I c. Bakı: Elm, 1998, 520 s.
6. Məmmədova F.S. Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası Dərslik. / F.S. Məmmədova. Bakı: Elm, 1993, 214 s.
7. Meşşaninov İ. Arxeoloji mədəniyyətlər. Bakı: Azərnəşr, 1977, 321 s.
8. Vəliyev S. Arxeoloji qazıntılar əsasında Gədəbəyin regional tarixi // Mədəniyyət dünyası elmi-nəzəri məcmuə, 2022, XXXXII buraxılış, s. 33-44.
9. Vəliyev S. Azərbaycan etnoqrafiyasının inkişaf mərhələləri // Elm və İnnovativ Texnologiyalar Beynəlxalq Elmi Araşdırmalar Jurnalı. 2021, №23, s. 84.
10. Vəliyev S. Müasir arxeologiya elminin inkişafı ictimai-iqtisadi formada təhlil obyektinə çevrilməkdədir // Sivilizasiya, 2021, C. 10, №1 (46), s. 44-49
11. Vəliyev S. Müasir arxeologiya elmi-ictimai-iqtisadi təhlil obyekti kimi // Sivilizasiya, 2021, C. 11, №4 (47), s. 82-89
12. Vəliyev S. Arxeologiya elmi Azərbaycan tarixinin öyrənilməsində bir mənbə kimi // Sivilizasiya, 2019, C. 8, №1 (41), s. 59-65
13. Vəliyev S. Arxeologiya elmini dərki üçün zəruri olan düşünmə prosesləri // Elmi əsərlər, 2018, №25, s. 22-27.

14. Vəliyev S. Arxeoloji mədəni sərvətlərin tədqiqi // Sivilizasiya, 2020, C. 9, №1 (45), s. 23-34.
15. Vəliyev S. Azərbaycan arxeologiyasının mürəkkəb və ziddiyyətli məsələləri // Sivilizasiya, 2018, C. 7, №1 (37) , s. 196-201.
16. Vəliyev S. Azərbaycan abidələr məskənidir // Sivilizasiya, 2022, C. 11, №2 (51), s. 35-41.
17. Vəliyev S. Azərbaycan arxeologiyası – maddi mədəniyyətimizin əsas mənbəyi kimi // Elmi əsərlər, 2019, №27, s. 27-34.
18. Zehtabi M. İran türklərinin əski tarixi. II c., Tehran: 1998, 326 s.
19. Osmanov F. Qafqaz Albaniyasının maddi mədəniyyəti. Dərslik. Bakı: Elm, 1982, 213 s.
20. Bosworth C. Azerbaican IV: Islamic History to 1941. Encyclopaedia Iranica, London: Routledge & Kegan Paul, 1989, Vol. 3.1, 166 pp.
21. Frye R. The History of Ancient. Iran: München, 1983, 172 pp.
22. Schippmann K. Azerbaijan III: Pre-Islamic History. Encyclopaedia Iranica, London: Routledge & Kegan Paul, 1989, Vol. 3.1, 149 pp.
23. Vəliyev S. Historical heritage of Azerbaijan. Ajalooline Ajakiri / The Estonian Historical Journal. Vəljaandja Tartu Ülikooli Kirjastus / Estonia: Published by University of Tartu Press W. Struve 1, 50091 Tartu, 2022, 86 pp.
24. Planhol X. Azerbaican I: Geography. Encyclopaedia Iranica, London: Routledge & Kegan Paul, 1989, Vol. 3.1, 177 pp.

***Резюме***

***Сахиб Велиев***

***Становление кедабекской археологии как основного источника нашей материальной культуры***

Кедабекский район – удивительная земля, в которой нашли отражение редкие красоты азербайджанской природы, материальное и культурное наследие азербайджанского народа, древние обычаи и традиции. кедабекский район славится не только редкими по красоте подзем-ными и надземными ресурсами, но и редкой природой и целебными водами. он имеет богатое и славное историческое прошлое у подножия шахдага, в окружении скалистых гор, густых лесных хребтов малого кавказа. в далеком прошлом он был создан в одном из древнейших поселений, принадлежащих к древней ходжалы-гадабекской культуре (вторая половина второго тысячелетия - начало первого тысячелетия до нашей эры) и стал постоянным человеческим поселением, относящимся к древней истории. древние поселения вокруг региона, в том числе знаменитые замки, замки, мосты, памятники и древние живые пещеры доказывают, что это один из древнейших стоянок человека на территории Азербайджана.

Одно из древнейших поселений Кавказа расположено на юге города кедабек, являющегося одним из самых очаровательных уголков Азербайджана, у подножия шахдага, окружающего малый кавказ, на высоте 2901-3203 м. метров над уровнем моря. в 70-х годах 20 века пещеры «Зар» в кельбаджарском районе и «тагилар» у села «Тагилар» в западной части кедабекского района и «Шурская горка» вокруг озера гейча, в лагере «Шуртан» и в «Галача», о которой мы хотим рассказать, в ходе археологических раскопок здесь были обнаружены каменные орудия труда и поселения, относящиеся к периоду палеолита.

Эти территории являются составной частью исторических земель Азербайджана-государств Манна и Мидия, Кавказской Албании, округов «Гёйча» и «Шамшеддин» Ереванского ханства. Кедабекский район, окруженный с одной стороны Карабахом, с другой-Ереванским ханством, с другой стороны-Шамшеддинским, а с другой стороны – районом гёйче, создавался и развивался как военно-стратегическое важное и экономическое государство. политический и культурный центр.

**Ключевые слова:** *Гадабауское поле, археологические раскопки, Замок, Галача, Дужгалаг, Гегемония, Национальное достояние, Хосалы-Гадабауская культура, «Галача»*

***Summary***

***Sahib Veliyev***

***The formation of Gadabay archeology as the main source of our material culture***

Gadabey region is a fascinating land that reflects the rare beauties of Azerbaijani nature, the material and cultural heritage of the Azerbaijani people, and ancient customs and traditions. Gadabey region is famous not only for its underground and above-ground resources of rare beauty, but also for its rare nature and healing waters. It has a rich and glorious historical past at the foot of Shahdag, surrounded by rugged mountains, densely forested Little Caucasus ranges. In the distant past, it was created in one of the most ancient settlements belonging to the ancient Khojaly-Gadabey culture (second half of the second millennium and the beginning of the first millennium BC) and became a permanent human settlement belonging to ancient history. The ancient settlements around the region, including the famous castles, castles, bridges, monuments and ancient living caves prove that it is one of the oldest human camps in the territory of Azerbaijan.

One of the oldest settlements of the Caucasus is located in the south of the city of Gadabay, one of the most charming corners of Azerbaijan, at the foot of Shahdag, which covers the Little Caucasus, which is 2901-3203 meters above sea level. In the 70s of the 20th century, near the village of "Zar" in Kalbajar district and "Tağılar" village in the western direction of Gadabay district, "Tağılar" caves and "Shur Tepe" camp, "Shurtan" camp around "Goycha Lake" and "Galacha" which we want to talk about. During the archaeological excavations, stone tools and settlements from the Paleolithic period were discovered here.

These territories are an integral part of the historical lands of Azerbaijan - the states of Manna and Midia, Caucasian Albania, "Goycha" and "Shamsheddin" districts of the Iravan Khanate. Gadabey district, which is surrounded by Karabakh on one side, Iravan khanate on the other side, "Shamsheddin" on the other side, and "Goyche" district on the other side, was created and developed as a military-strategic important and economic, political, and cultural center.

**Key words:** *Gadabau field, archaeological excavations, castle, galacha, duzhgalag, hegemony, national wealth, Khosaly-Gadabau culture, "Galacha"*

Redaksiya heyətinin üzvü t.e.f.d., dos. Mehdiyev Aqşin Şəfaət oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.